# Qırmızı qəsəbədə sərgi açılıb

**Qubadakı Qırmızı qəsəbədə yerləşən Dağ Yəhudiləri Muzeyində İkinci Dünya müharibəsində nasizm üzərində qələbəyə və yəhudi xalqının məhv olmaq təhlükəsindən xilasını simvolizə edən "Qurtuluş və Nicat Günü"nə həsr edilmiş sərgi açılıb.**



AZƏRTAC xəbər verir ki, Dağ Yəhudiləri İrsi Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə müharibə zamanı həlak olan insanların xatirəsi yad edilib.

Dağ Yəhudiləri Muzeyinin direktoru İqor Şaulov Holokost faciəsi zamanı dağ yəhudilərinin üzləşdikləri çətinliklər və onlara qarşı törədilən qətliamların icmanın tarixində və həyatında dərin, silinməz iz qoyduğunu bildirib. O, qələbənin və qurtuluşun böyük qurbanlar bahasına başa gəldiyini qeyd edərək, bu tarixin daim yaddaşlarda saxlanılmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıb. İqor Şaulov tolerantlığı və multikulturallığı ilə dünya üçün nümunə olan və antisemitizmə qarşı çıxan Azərbaycanda uzun illər müxtəlif xalqların və dinlərin dinc, qarşılıqlı hörmət şəraitində yaşadığını, bu nizamın qorunub saxlanılmasında Prezident İlham Əliyevin böyük əməyinin olduğunu qeyd edib.

Sərgidə çıxış edən İsrailin Azərbaycandakı səfiri Corc Dik son illər dünyada ekstremizm və antisemitizm nümunələrinin yenidən baş qaldırdığını vurğulayaraq, bunun nəinki yəhudi xalqı, dünya üçün yeni təhlükələr yaratdığını bildirib. Səfir faciəvi tarixin bir daha təkrarlanmaması üçün dünyada yaşayan yəhudilərin birlik nümayiş etdirməsinin önəmini qeyd edib və yəhudi xalqının dünyada hər zaman sülh tərəfdarı olduğunu vurğulayıb.

İştirakçılar muzeydə qorunub saxlanılan nadir eksponatlarla və fotoşəkillərlə tanış olub, ziyarətçilərə icmanın tarixi, mədəni irsi və muzeyin bu irsin qorunmasında oynadığı rol barədə ətraflı məlumat təqdim olunub. Həmçinin Qırmızı qəsəbəyə bələdçilərin müşayiəti ilə ekskursiya təşkil edilib.

Azərbaycan.- 2025.- 28 may (№110).- S.17.